| |
|---|
| **60303 İnstrumental ifaçılıq**<br>**İxtisaslaşmalar:**<br>İnstrumental ifaçılığın tarixi, nəzəriyyəsi və metodikası (musiqi alətləri üzrə) |
| İnstrumental ifaçılıq ixtisasının məqsəd və vəzifələrinə instrumental ifaçılıq sənətinin təkamül prosesində görkəmli ifaçıların fəaliyyəti, yaradıcılıq prinsip və metodlarının araşdırılması, əsərlərin bədii xüsusiyyətlərini təhlili, solo yaradıcılığında fərdi repertuar seçimi, gələcək iş planlarının qurulması, həmçinin instrumental ifaçılıq sənətinin keçdiyi təkamül yolu, o cümlədən, dünya və Azərbaycan bəstəkarlarının instrumental əsərlərində təzahür edən üslub xüsusiyyətlərinin, ifa prinsiplərinin öyrənilməsi metodikası daxildir. |
| **60304 Solo oxuma**<br>**İxtisaslaşmalar:**<br>Xanəndəlik sənətinin tarixi, nəzəriyyəsi və metodikası<br>Vokal ifaçılığının tarixi və nəzəriyyəsi<br>Muğamın tədrisi metodikası<br>Aşıq sənəti ifaçılığının tarixi və nəzəriyyəsi |
| Solo oxuma ixtisasının məqsəd və vəzifələrinə əruz və musiqinin qarşılıqlı əlaqələrinin, muğam dəstgahlarının, zərb muğamların, təsnif və rənglərin araşdırılması metodologiyasının mənimsənilməsi, səslərin səlis intonasiya etmək, solo oxuma tədrisinin metod və vasitələrini düzgün tədris vərdişlərinə yiyələnmək, muğam sənətinin əsas inkişaf mərhələlərinin, əsrlərlə formalaşmış muğam məktəblərinin üslub və ifa prinsiplərinin araşdırması daxildir. |
| **60309 Estrada sənəti**<br>**İxtisaslaşmalar:**<br>Estrada populyar musiqisinin tarixi və nəzəriyyəsi |
| Estrada sənəti ixtisasının məqsəd və vəzifələrinə estrada ifaçılığının özünəməxsus cəhətlərinin, müasir dövrdə estrada ifaçılığının aktual problemlərinin, səs aparatının spesifik xüsusiyyətlərinin və imkanlarının, dünya və Azərbaycan bəstəkarlarının estrada əsərlərinin öyrənilməsi, ifaçı üçün zəruri olan professional keyfiyyətlərin araşdırılması, geniş diapazonlu repertuara malik olan, müasir estrada sənətinin inkişafı və təbliği istiqamətində fəaliyyət göstərə bilən, kütləvi tamaşaçı qarşısında geniş konsert proqramı ilə çıxış etməyi bacaran, pedaqoji təcrübəyə malik olan və vokal ifaçılığında elmi tədqiqatlar aparmağı bacara bilən mütəxəssislərin yetişdirilməsi daxildir. |
| **60307 Musiqişünaslıq**<br>**İxtisaslaşmalar:**<br>Muğamşünaslıq<br>Etnomusiqişünaslıq<br>Etnoorqanologiya<br>Aşıqşünaslıq<br>Musiqi tənqidi |
| Musiqişünaslıq ixtisasının məqsəd və vəzifələrinə musiqişünaslığın mühüm sahələri olan nəzəri musiqişünaslıq, tarixi musiqişünaslıq, etnomusiqişünaslıq, etnoorqonologiya, musiqi tənqidinin tarixi və nəzəriyyəsinin, musiqişünaslığın tarixi və metodologiyasının öyrənilməsi, XX əsrin dünya musiqi sənətinin əsas təmayüllərini, o cümlədən, milli musiqi yaradıcılığında təzahür edən üslub xüsusiyyətlərinin araşdırılması daxildir. |
| **60310 Xalq çalğı alətləri ifaçılığı**<br>**İxtisaslaşmalar:**<br>Xalq çalğı alətləri ifaçılığının nəzəriyyəsi və metodikası |
| Xalq çalğı alətləri ifaçılığı ixtisasının məqsəd və vəzifələrinə xalq çalğı alətlərinin tarixi keçmişini, keçdiyi formalaşma dövrünü və müasir problemlərinin əsas məqamlarını, alətlərimizin səslənmə xüsusiyyətlərini və nəzəri problemlərini, alətlərimizin instrumental formasının bugünkü durumunu, xalq çalğı alətlərinin not ifaçılıq prosesinin yaranmasının tarixi problemlərini, instrumental muğam janrının yaranma və formalaşmasında musiqi alətlərində tar, kamança, qanun, milli nəfəs alətləri, qarmon, nağara alətlərinin ifa prinsiplərinin öyrənilməsi daxildir. |